HAQQIN SÖZÜ-SÖZÜN HAQQI.

# Yeni YOL

31 okyabr 2015-ci il

№0010 (10)

yeni_yol@mail.ru | İCTİMAİ QƏZET | “იენი იოლი” საზოგადოებრივი გაზეთი | qəzet 17 iyun 2015-ci ildən nəşr olunur

## OKTYABRIN 25-DƏN GÜRCÜSTANDA NATO HƏFTƏSİ START GÖTÜRÜB



Sentyabrın 25-dən Gürcüstanda NATO həftəsi başlayır. NATO həftəsinin məqsədi alyans barədə vətəndaşları məlumatlandırmaqdır. Bu barədə NATO və Aİ-nin İnformasiya mərkəzinin məlumatında bildirilib.

“NATO həftəsi NATO və Aİ-nin İnformasiya mərkəzinin 10 illik yubileyinə həsr olunmuş rəsmi mərasimlə oktyabrın 25-də açılacaq və noyabrın 8-dək davam edəcək”, – məlumatda deyilir.

NATO həftəsi çərçivəsində Tbilisidə və regionlarda müxtəlif tədbirlər, o cümlədən də şagirdlər, tələbələr, yunkerlər, qeyri-hökumət təşkilatları və diplomatik nümayəndəliklərlə görüşlər nəzərdə tutulub. Gənclik konfransları, debatlar, intelaktual oyunlar, sərgilər keçirilməsi planlaşdırılıb.

NATO və Aİ-nin İnformasiya mərkəzinin Qoridə regional bürosunun açılışı da gözlənilir.

NATO həftəsi noyabrın 8-də “NATO Kuboku” media turniri ilə başa çatacaq.

Tədbiri Gürcüstan müdafiə nazirliyi, Avropa və Avroatlantik strukturlara inteqrasiya məsələləri üzrə nazirlik, NATO ofisinin əlaqələndiricisi və Rumıniya səfirliyinin dəstəyi ilə NATO və Aİ-nin İnformasiya mərkəzi təşkil edib.

Gürcüstanla NATO-nun əməkdaşlığı 1994-cü ildən başlayıb. “Qızılgül inqilabı”ndan sonra bu əməkdaşlıq daha da intensivləşib. 2008-ci ilin aprelində NATO-nun Buxarest sammitində NATO-ya üzv olan dövlətlərin başçıları Ukrayna və Gürcüstanın gələcəkdə alyansa üzv ola biləcəklərini təsdiqləyiblər.


*HADİSƏLƏRİN PƏRDƏARXASI GÖRÜNTÜLƏRİ* — 2

*GÜRCÜSTAN-TÜRKİYƏ SƏRHƏDİNDƏ YENİ “KARSAXİ” GÖMRÜK-BURAXILIŞ MƏNTƏQƏSİ AÇILIB* — 3

*YAXIN ŞƏRQİN SAĞALMAZ YARASI – FƏLƏSTİN MÜŞKÜLÜ* — 4

*AZADLIQ ƏLİMİZİN ÇATMADIĞI ZİRVƏDİRMİ?* — 5

*MƏN MÜSƏLMANAM, ANCAQ MƏNƏ TERRORÇU DEYİRLƏR* — 6

*TEXNOLOGİYAYA YİYƏLƏNMƏYİ ZƏRURİ EDƏN AMİLLƏR* — 7

*QARDABANİDƏ “İNSAN HƏYATININ DƏYƏRİ” ADLI ƏDƏBİ MÜSABİQƏ KEÇİRİLİR* — 8


## GÜRCÜSTAN BMT-NİN İNSAN HÜQUQLARI ŞURASININ ÜZVÜ OLDU



Gürcüstan XİN-nin oktyabrın 29-da yaydığı məlumatda bildirilib ki, Gürcüstanı ilk dəfə BMT-nın insan hüquqları şurasının üzvü seçiblər.

Gürcüstanın insan hüquqları şurasına üç illik üzvlüyü oktyabrın 28-də BMT Baş Assambleyasının plenar iclasında 177 səslə mümkün olub.

BMT-nin insan hüquqları şurası 47 üzvdən ibarətdir. Onlar öz səlahiyyətlərini üç il müddətinə yerinə yetirməlidirlər və təcili yenidən seçilmə hüquqları yoxdur.

## GİORGİ KVİRİKAŞVİLİ İLK XARİCİ SƏFƏRİNİ BAKIYA EDİB



Oktyabrın 19-da Gürcüstan baş nazirinin müavini, xarici işlər naziri Giorgi Kvirikaşvili Azərbaycana rəsmi səfər edib.

Azərbaycan Respublikasının prezidenti İlham Əliyev Giorgi Kvirikaşvilini qəbul edib.

Gürcüstanın Baş nazirinin müavini, xarici işlər naziri Giorgi Kvirikaşvili ilk rəsmi səfərini məhz Azərbaycana etməsindən məmnunluğunu bildirib. İkitərəfli münasibətlərimizin yüksək səviyyədə olduğunu deyən Giorgi Kvirikaşvili əməkdaşlığımızın müxtəlif sahələrdə inkişaf etdirilməsinin əhəmiyyətini vurğulayıb.

Azərbaycan prezidenti Gürcüstanın xarici işlər naziri vəzifəsində Giorgi Kvirikaşvilinin ilk xarici səfərini Azərbaycana etməsini ölkələrimiz arasında dostluq və qardaşlıq münasibətlərinin yaxşı göstəricisi kimi dəyərləndirib. Azərbaycan-Gürcüstan əməkdaşlığının siyasi, iqtisadi, humanitar və digər istiqamətlərdə fəal şəkildə davam etdirilməsinin zəruriliyini vurğulayan Prezident İlham Əliyev bu əməkdaşlığın ölkələrimizi birləşdirən irimiqyaslı nəqliyyat, energetika və iqtisadi layihələrin həyata keçirilməsi baxımından əhəmiyyətini qeyd edib.

Giorgi Kvirikaşvili Azərbaycan Respublikasının baş naziri Artur Rəsizadə, Milli Məclisin sədri Oqtay Əsədov və azərbaycanlı həmkarı Elmar Məmmədyarovla da görüşüb.

## GÜRCÜSTANDA BÖHRANLARIN İDARƏ OLUNMASI MƏRKƏZİ FƏALİYYƏT GÖSTƏRƏCƏK

İki aydan sonra Gürcüstanda böhranların idarə olunması Mərkəzi fəaliyyət göstərəcək. Onun yaradılmasında və inkişafında Böyük Britaniya hökmətinin xarici təhlükəsizlik və böhranların idarə olunması sahəsində müşaviri general ser Harri Conson fəal iştirak edir.

Oktyabrın 28-də ser Harri Consonla Gürcüstanın baş naziri İrakli Qaribaşvilinin görüşü olub. Tərəflər təhlükəsizlik və böhranların idarə olunması və regional təhlükəsizlik məsələsəri sahəsində əməkdaşlığın dərinləşdirilməsi perspektivlərini müzakirə ediblər.

Gürcüstanın Avropa və avroatlantik inteqrasiya yolundakı inkişafı qeyd olunub. Gürcüstanın beynəlxalq təhlükəsizliyin təmin olunmasında oynadığı rol diqqətə çatdırılıb.

Ser Harri Conson 90-cı illərdə Avropada müttəfiq qoşunlarına başçılıq edib. O, müxtəlif vaxtlarda Baltik ölkələrində və Qafqazda da fəaliyyət göstərib.



Afiq MUXTAROĞLU
amuxtaroglu@mail.ru

# HADİSƏLƏRİN PƏRDƏARXASI GÖRÜNTÜLƏRİ

**Yadınızdadırsa, uzun yayı yağış deməkdən, bir sərinlər gəlsəydi mızıldanmaqdan dilimiz ozan olmuşdu. İndi də oturub-durub yağış zəhləmizi tökdü, soyuqdan donduq, indidən də belə soyuqmu olar kimi laflar edirik. Yayda Allahın bizə lütf etdiyi müftə, pulsuz-parasız istini indi əli pullu, az qala gündüz vaxtı əli çıraqlı axtarırıq. Ancaq aramsız yağan yağışlara görə, sümüyümüzü donduran soyuqlara görə qaşımızı-qabağımızı sallamağa dəyərmi? Nədən ki, biz hər yay istilərdən, hər payız-qış yağışdan-yağmurdan, soyuqdan şikayət etməyə vərdişkar bəndələrik. Yazın burunu qanayan kimi də, öz aramızdır, bütün bunları düz növbəti yayın gəlişinədək unutmuruqmu?**

Nə isə keçim əsa mətləbə. mən bşqa məsələlərdən yazmalı olduğumu bilirəm. Keçənə güzəşt deyərlər, bu, isti-soyuq başımı qatdı. Arxada qoyduğumuz iki həftədən bir az artıq vaxt ərzində olanları burada sadalamamız belə bizim imkanımız xaricindədir. Diqqətimizi olanlardan bir-ikisinin üzərində cəmləşdirməli olsaq, elə qalanlarından da danışmış kimi olarıq. Və düşünürəm ki, uzağa getmədən, dağa-daşa düşmədən ölkəmizdə baş vermiş və az qala zəncir şəklində bir-birilə bağlı olan hadisələr silsiləsinə nəzər yetirməmiz gərəkdir. Ölkə gündəmini neçə gündür ki, məşğul edən, "Rustavi-2" telekanalı ilə bağlı hadisələrin təkcə ölkəmizdə deyil, onun hüdudlarından kənarda da böyük əks-səda yaratması maraq doğurmaya bilməz. "Rustavi-2"nin məhkəməlik olmasını insanlar azad sözə qarşı, KİV-ə qarşı bir basqı, bir zorakılıq aktı kimi dəyərləndirirlər. O üzdən ki, bu teleşirkət cəmiyyətin aşağıdan yuxarıya doğru istənilən təbəqəsinin fikir və düşüncə tərcümanı olmasını çoxdan sübut edib. Bəzilərinin onu müxalifətə işləməkdə suçlaması belə yersiz görünür. Hadisələrin gedişi bu ittihamın get-gedə absurda döndüyünü aydın şəkildə ortaya qoyur. Azad sözə qarşı basqı ictimai-siyasi gündəmi silkələyərək, ayrı-ayrı siyasilərin də vurğuladıqları kimi cəmiyyətdə qarşıdurma meyllərini gücləndirir.

Milli Demokratiya İnstitutunun keçirdiyi rəy sorğusu da cəmiyyətin çaş-başlığını, onun dilemma qarşısında qaldığını üzə çıxarıb. 2014-cü illə müqayisədə Avropa İttifaqına etibar edənlərin sayında bu il düşüşün müşahidə olunması ölkəmizdə rusofillərin artmasından xəbər vermirmi? Bir tərəfdə NATO həftəsinə start verilərək, Avropaya inteqrasiyadan danışırıq, digər tərəfdə *"Qazprom"*la bazarlıq yapıb Rusiya qazının Gürcüstana gətirilməsindən və ya Gürcüstandan keçirib hansısa bazara çıxarılmasından söhbət açırıq. İşimizi qəlizləşdirən məsələlərdən biri də Ermənistan prezidenti Serj Sarqsyanın ölkəmizə qəfil səfəri ilə bağlıdır. Təhlilçilərin qənaətinə görə, Azərbaycan prezidenti İlham Əliyevin Gürcüstana noyabrın 6-a nəzərdə tutulmuş rəsmi səfərindən öncə Sarqsyanın ölkəmizə tezbazar səfərinin arxasında da, Rusiya qazının Ermənistan vasitəsilə qaza ehtiyacı olmayan İrana nəql olunması məsələsi dayanır. Və energetika nazirimiz Kaxa Kaladzenin Azərbaycanın Gürcüstanı qazla təmin edə bilməməsi fikrinin rəsmi şəkildə təkzib olunması torbada pişiyin, ortada başqa bir bazarlığın olmasına dəlalət edir. Əslində biz istənilən ölkənin, o cümlədən də Gürcüstanın qonşularla dinc, əlverişli, bərabərhüquqlu münasibətlərinə tərəfdarıq. Ancaq burada söhbət ölkəmizin strateji ortağı olan Azərbaycanın məkrli oyuna gətirilməsindən gedir. Burada Uinston Çörçilin "İngiltərənin daimi dostları yoxdur, daimi maraqları var" ifadəsi yada düşür. Bu fikir Gürcüstan üçün də keçərlidir. Amma siyasətdə də müəyyən meyarların gözlənilməsi, siyasi əxlaqın, siyasi etikanın qorunması vacibdir. Üstəgəl də Azərbaycanın təkcə Cənubi Qafqazda deyil, bütöv regionda ən güclü oyunçu olmasını Azərbaycanı sevməyənlərin belə etiraf etdiyi bir məqamda, Azərbaycana arxa çevirmək ölkəmizə nə qazandıracaq sualını qoymaqdan özümüzü saxlaya bilmirik.

**Siyasətdə də, ictimai həyatda da, iqtisadiyyatda da istiləşmə və soyuqlaşma hallarının bir-birini əvəzləməsi baş verə bilər. Bu məqamda insan etdikləri ilə elə bil təbiəti yamsılayıb, təqlid etmiş kimi görünür. İnkişafın yerini tənəzzülə verməsi, tərəqqinin tənəzzülü geriyə çəkilməyə məcbur etməsi halları olub, yenə də olacaq. Müxtəlif fikir toqquşmaları, düşüncə çarpışmaları, köhnəliklə yeniliyin mübarizəsi tarix boyu baş verib, bu gün də belə bir prosesin olması çox normaldır.**

# TÜRKİYƏDƏ CÜMHURİYYƏT BAYRAMI TƏNTƏNƏLİ ŞƏKİLDƏ QEYD EDİLİB

Oktyabrın 29-da Türkiyə Cümhuriyyətinin yaranmasının 92-ci ildönümü münasibətilə Ankarada rəsmi mərasim keçirilib.

Mərasimdə Prezident Rəcəb Tayyib Ərdoğan, Baş nazir Əhməd Davudoğlu və digər rəsmi şəxslər, siyasi partiyaların rəhbərləri, ölkə ictimaiyyətinin nümayəndələri iştirak ediblər.

Türkiyə Cümhuriyyətinin banisi Mustafa Kamal Atatürkün dəfn olunduğu məqbərə - Anıtqəbir ziyarət olunub. Atatürkün məzarı önünə əklil qoyulub, xatirəsi yad olunub.

Prezident Rəcəb Tayyib Ərdoğan bayram mərasimində çıxış edib.

Türkiyənin milli bayramı – Respublika günü münasibətilə təşkil olunan mərasimlər gün ərzində ölkə ərazisinin hər yerində davam edib.

Xatırladaq ki, 1923-cü il oktyabrın 29-da türk dünyasının böyük oğlu Mustafa Kamal Atatürkün rəhbərliyi ilə Türkiyə Cümhuriyyətinin yaranması bəyan edilib. Cumhuriyyətin elanından sonra ilk Prezident seçilən




Mustafa Kamal Paşa Türkiyənin Dövlət-i Aliyədən (Osmanlı sistemi) yeni siyasi rejimə faktiki keçidini şərtləndirən geniş miqyaslı islahatların banisidir. 1924-cü ildən keçirilməyə başlayan bayram Türkiyənin bütün şəhərlərində, Şimali Kipr Türk Respublikasında və dünyanın bütün ölkələrindəki Türkiyə səfirliklərində qeyd edilir.

# OKTYABRIN 31-DƏ "QARDABNOBA 2015" BAYRAMI KEÇİRİLİB



Oktyabrın 31-də Qardabanidə Qardabani şəhər günü "Qardabnoba 2015" qeyd edilib. Bu bayram 1992-ci ildən qeyd edilir.

Bu ilki xalq bayramı cüdo yarışları ilə başlayıb və müxtəlif çəki dərəcəsində olan cüdoçular qələbə uğrunda mübarizə aparıblar. Qalibləri Kvemo Kartli qubernatoru Paata Xizanişvili, deputat Giorgi Peikrişvili, Qardabani bələdiyyəsinin sədri Qarsevan Nioradze və Sakrebulo sədri Vaja Qenqaşvili mükafatlandırıblar. Tədbirdə Davit Ağmaşenebeli adına parkın açılışı olub.

Qubernator qardabanililərə baş nazirin təbrik məktubunu da çatdırıb. Bayram tədbiri çərçivəsində sərgi və konsert proqramı təşkil edilib.

Bələdiyyə sədri Qarsevan Nioradze və qubernator Paata Xizanişvili Qardabaninin yeddi fəxri vətəndaşını və 12 nümunəvi şagirdi mükafatlandırıb. Həmyerlilərimizdən Almaz Sadıqov, şair Zahid Ələmpaşalı, Geofid istehsal müəssisəsinin təsisçisi, iş adamı İlham Mustafayev Qardabaninin fəxri vətəndaşı adına layiq görülüblər. 12 şagird, o cümlədən Sarticala kənd 3 nömrəli məktəbin şagirdi Telman Nəbiyev qızıl medalla təltif edilib.

# İKİNCİ KOSALI KƏND MƏSCİDİNDƏ AŞURA GÜNÜNƏ HƏSR OLUNMUŞ MƏRASİM KEÇİRİLDİ



Hicri 1437-ci iln məhərrəm ayının 1-i miladi təqvimlə oktyabrın 14-də başlayıb. Məhərrəm ayının 10-cu günü olan Aşura isə miladi təqvimlə 2015-ci ilin 23 oktyabrına uyğun gələrək, dünyanın bir çox ölkələrində qeyd olunub. Bu mərasim ölkəmizdə də bir sıra tədbirlərin keçirilməsi ilə yadda qalıb.

Belə tədbirlərdən biri də İkinci Kosalı İslam Mədrəsəsinin təşkilatçılığı ilə və Bütün Gürcüstan Müsəlmanlar İdarəsinin dəstəyi ilə Marneuli rayonunun Kosalı kənd Məscidində həyata keçirilib. Bu mərasimdə Bütün Gürcüstan Müsəlmanları İdarəsinin Müftisi Hacı Yasin Əliyev və idarənin Şeyxi Hacı Ramin İgidov Məhərrəm ayı və Aşura günü haqqında çıxış edərək, düzənlənən mərasimin xüsusiyyətləri barədə toplaşanlara ətraflı məlumat vermişlər.

Aşura günü münasibətilə təşkil edilmiş mərasimdə Kosalı mədrəsəsinin rəhbəri Hacı Natiq Əliyev, mədrəsinin müəllimi Şirxan Çobanov, eləcə də digər müəllimlər və dəvət olunmuş qonaqlar çıxış edib, Aşura ilə bağlı fikirlərini söyləmişlər. Mərasimdə mədrəsənin tələbələri Aşura gününə aid ilahilər ifa etmişlər. Aşura mərasiminin sonunda iştirakçılar bilikdə dua etmişlər.

Aşura gününə həsr olunmuş mərasim bu gün üçün nəzərdə tutulmuş ehsan süfrəsi arxasında davam etdirilmişdir.

# GÜRCÜSTAN-TÜRKİYƏ SƏRHƏDİNDƏ YENİ “KARSAXİ” GÖMRÜK-BURAXILIŞ MƏNTƏQƏSİ AÇILIB

Gürcüstan-Türkiyə sərhədində yeni “Karsaxi” gömük-buraxılış məntəqəsi açılıb. Paralel olaraq Türkiyə tərəfdə “Aktaş-Çıldır” gömrük-buraxılış məntəqəsi fəaliyyətə başlayıb.



Sərhəddə gömrük-buraxılış məntəqəsinin (GBM) açılışı ilə əlaqədar birgə bayram tədbiri keçirilib. Tədbirdə Gürcüstan maliyə naziri Nodar Xaduri, Türkiyənin gömrük məsələləri və ticarət naziri Cenaf Aşcı, eləcə də Türkiyədən və Gürcüstandan yüksək vəzifəli qonaqlar iştirak ediblər.

Açılış mərasimində qeyd olunub ki, GBM-nin fəaliyyətə başlaması regionun sosial-iqtisadi inkişafına, ölkələrin tranzit potensialının yüksəldilməsinə, yerli əhalinin işlə təmin olunmasına imkan yaradacaq, habelə Gürcüstan və Türkiyə ərazisi vasitəsilə beynəlxalq əlaqələrin inkişafına böyük töhfə verəcək.

Yeni GBM sərnişinləri tez və rahat xidmətlə təmin edəcək, “Sarp” və “Vale” GBM-nin yükünü azaldacaq. Yeni GBM-nin buraxıcılıq qabiliyyəti sutka ərzində 500-600 maşın və 10 min sərnişin üçün nəzərdə tutulub.

İlk mərhələdə xüsusi təlim keçdikdən sonra 70 nəfər işlə təmin edilib ki, bunun da 80-85%-i yerili sakinlərdir.

“Karsaxi” GBM-nin tikintisi və təchizatı 11532940 lariyə başa gəlib. Tikinti işlərində 200 nəfər çalışıb, bunun da 40-50 nəfəri yerli sakinlər olub.

# BAKI-TBİLİSİ-BAKI SÜRƏT QATARINDA YENİLİK TƏTBİQ OLUNUB

Artıq Bakı-Tbilisi-Bakı sürət qatarına hər iki istiqamətdə bilet almaq mümkündür.Bu barədə «Azərbaycan Dəmir Yolları» Qapalı Səhmdar Cəmiyyətindən məlumat verilib.

Qurumdan bildiriblər ki, Gürcüstandan Azərbaycana gələn 37 saylı Tbilisi-Bakı sürət qatarına bilet almaq istəyənlər artıq Bakı sərnişin vağzalındakı 2 saylı kassaya müraciət edib bilet ala biləcəklər.

Bu vaxtadək sərnişinlər Bakı sərnişin vağzalından Bakı-Tbilisi-Bakı sürət qatarına ancaq bir istiqamətə bilet ala bilirdilər.

# GÜRCÜSTANIN ƏSAS TİCARƏT TƏRƏFDAŞI TÜRKİYƏDİR

“Sakstat” milli statistika xidmətinin məlumatında bildirilir ki, 2015-ci ilin yanvar-sentyabr aylarında ölkəmizin əsas ticarət tərəfdaşı olan Türkiyə ilə xarici ticarət dövriyyəsi 1,1 milyard dollardan artıq olmuşdur.

Hesabat dövründə Gürcüstanın xarici ticarət dövriyyəsinin 15,2%-i Türkiyə ilə dövriyyənin payına düşür. Əgər Türkiyə ilə Gürcüstanın xarici ticarət dövriyyəsini 2014-cü ilin müvafiq dövrünün göstəriciləri ilə müqayisə etsək hazırkı göstəricinin 22,4% azaldığını müəyyən etmək olar. 2015-ci ilin yanvar-sentyabr aylarında Gürcüstanın bütün xarici ticarət dövrüiyyəsi qeyri-mütəşəkkil ticarət nəzərə alınmadan 7 milyard 309 milyon dollar olmuşdur ki, bu da 2014-cü ilin anoloji dövrü ilə müqayisədə 13% azdır.

Hesabat dövründə ixrac təxminən 1 milyard 645 milyon dollar (24% az), idxal isə 5 milyard 664 milyon dollar (9% az) olmuşdur.

# AZƏRBAYCAN GÜRCÜSTANI QAZLA TAM TƏMİN EDİR

Azərbaycan Gürcüstan əhalisini demək olar ki, lazım olan qazla tam təmin edə bilir. Bu barədə SOCAR Georgia-nın baş direktoru Mahir Məmmədov bildirib.



Bununla Məmmədov Gürcüstan energetika naziri Kaxa Kaladzenin səsləndirdiyi “Gürcüstanın günü-gündən artan qaz tələbatını Azərbaycanın göndərdiyi qaz təmin etmir, buna görə də Gürcüstan tərəfi Rusiyanın “Qazprom” şirkətilə qaz təchizatı ilə bağlı danışıqlara başlamaq niyyətindədir” bəyanatına cavab verib.

Mahir Məmmədovun sözlərinə görə, Gürcüstana gündəlik 5 milyon kubmetr, üstəgəl, 1 milyon kubmetr qaz da Şahdəniz yatağından daxil olur. Gürcüstanın bir gündə istifadə etdiyi qazın həcmi 6 milyon kubmetrdir.

“Biz əhalini lazım olan həcmdə qazla demək olar ki, tam təmin edirik”, – Məmmədov bəyan edib.

# SORĞU İŞTİRAKÇILARININ 61%-İ GÜRCÜSTANIN AVROPA İTTİFAQINA DAXİL OLMASINA TƏRƏFDARDIR

Milli Demokratiya İnstitutu Gürcüstanda keçirilmiş ictimai rəy sorğusunun siyasi hissəsini açıqlayıb.

Rəyi soruşulanların 61%-i Gürcüstan hökumətinin bəyan etdiyi Avropa İttifaqına daxil olmaq məqsədinə tərəfdardır, 21% isə buna qarşıdır. Qeyd etmək lazımdır ki, 2014-cü ilin avqustunda həyata keçirilmiş sorğuda Aİ-yə rəyi soruşulanların 78%-i tərəfdar idi, yalnız 10% əleyhinə idi.

Aİ-nin Gürcüstana hansı təsiri var sualına rəyi soruşulanların 25%-i “böyük siyasi təsiri” var, 34%-i “orta təsiri”, 23%-i az və ya heç bir təsiri yoxdur cavabını verib. 19%-i suala “bilmirəm” cavabı verib.

Sorğu iştirakçılarının 18%-i Aİ-nin iqtisadi sahədə böyük, 33%-i orta, 28%-i az və heç bir təsiri olmadığını bildirib, 20% isə cavab verməyə çətinlik çəkib.

NDİ rəy sorğularını avqustun 8-dən sentyabrın 10-dək həyata keçirib. Bütün Gürcüstan üzrə 4448 nəfərin rəyi soruşulub.

# TBİLİSİDƏ “TÜRKMƏNİSTAN” MAĞAZASININ TƏNTƏNƏLİ AÇILIŞI OLUB

Tbilisidə “Türkmənistan” mağazasının təntənəli açılış mərasimi olub.

Türkümənistanda istehsal olunan məhsulların, o cümlədən də toxuculuq sənayesi mallarının, xalça və xalçaçılıq məmulatlarının, milli suvenirlərin geniş təqdim olunduğu yarmarka təşkil edilib. Bundan əlavə qənnadı məhsulları, meyvə şirələri tədbirə qatılanların diqqətini cəlb edib.

Yarmarka Türkmənistan tibb və tibb sənayesi nazirliyi, toxuculuq sənayesi nazirliyi, Dövlət yeyinti sənayesi birliyi, ticarət-sənaye palatasının iştirakı ilə Türkmənistan sənayeçilər və sahibkarlar İttifaqı tərəfindən təşkil olunub.

“Türkmənistan” mağazasının açılış mərasimində Türkmənistanın Gürcüstandakı səfirliyinin əməkdaşları, Türkmənistan biznesinin nümayəndələri, habelə Tbilisi şəhər administrasiyasının rəhbərləri, xarici işlər nazirliyinin, Gürcüstan ticarət-sənaye palatasının və gürcü şirkətlərinin nümayəndələri iştirak ediblər.

# GÜRCÜSTAN GÖYƏRTİSİ RUSİYA BAZARINI FƏTH EDİR

Gürcüstan göyərtisi Rusiya piştaxtalarında görünəcək. Rusiya kənd təsərrüfatına nəzarət idarəsinin başçısı Serqey Dankvertin Gürcüstan kənd təsərrüfatı nazirliyinin müşaviri Zurab Çekuraşvili ilə görüşü zamanı belə bir razılaşma əldə olunub.

Rusiya idarəsinin məlumatında deyilir: “Görüş zamanı Gürcüstan göyərtisinin Rusiyaya göndərilməsinə başlamaq haqqında razılaşma əldə edilib”.

Tərəflər aqrar məhsulların göndərilməsi zamanı təhlükəsizliyin təmin edilməsi sahəsində ikitərəfli əlaqələrin inkişafından razılıqlarını da ifadə ediblər.

Rusiya kənd təsərrüfatına nəzarət idarəsinin başçısı qeyd edib ki, monitorinqin nəticələrinə görə, Rusiya kənd təsərrüfatına nəzarət idarəsinin Gürcüstanın bitkiçilik məhsullarından narazılığı yoxdur. Çekuraşvili isə bildirib ki, Gürcüstan Rusiya bazarına təhlükəsiz sitrus göndərilməsinə də hazırdır.

# RUSİYA GÜRCÜSTANDAN HEYVAN İDXALINA QADAĞA QOYDU



Rusiya kənd təsərrüfatına nəzarət idarəsi Rusiya ərazisinə dövlət baytarlıq nəzarəti altında olan heyvanların və heyvandarlıq məhsullarının idxalını qadağan edib. Bu barədə idarənin yaydığı məlumatda bildirilir.

“Ryazan və Tambov vilayətləri üzrə Federal baytarlıq və fitosanitar nəzarət xidməti idarəsindən bildirilir ki, Gürcüstan ərazisində Afrika donuz taunu və dabaq xəstəliyi ilə əlaqədar yaranmış şəraitə görə balıq, dəniz məhsulları, balıq unundan savayı Rusiya ərazisinə Gürcüstandan diri heyvanların və Gürcüstan müəssisələrində istehsal olunan digər heyvandarlıq məhsullarının gətirilməsi qadağan olunur”, – məlumatda deyilir.

Rusiya kənd təsərrüfatına nəzarət idarəsinin məlumatına görə, Aİ-də 1,5 il ərzində Afrika donuz taununun yayılması halları Rusiyadakı 8 illik müvafiq göstəricini üstələyib.

# GÜRCÜSTAN UKRAYNAYA NOTA VERDİ

Gürcüstan xarici işlər nazirinin müavini David Calaqaniya Ukraynanın bu ölkədəki müvəqqəti işlər vəkili Georgi Nazarova rəsmi nota təqdim edib.

Məlumatı Gürcüstan xarici işlər nazirliyinin mətbuat xidməti yayıb.

Gürcüstan tərəfi keçmiş prezident, Odessa vilayətinin qubernatoru Mixail Saakaşvilinin Gürcüstanın təhlükəsizlik və stabilliyinə təhdid kimi qiymətləndirilən açıqlamalarına etirazını bildirib. Bildirilib ki, bu kimi açıqlamalar Gürcüstanın daxili işinə qarışmaq kimi qiymətləndirilir və qəbuledilməzdir. Açıqlamanın Gürcüstan və Ukrayna arasındakı əməkdaşlıq və dostluğa uyğun gəlmədiyi vurğulanıb.

Məlumatda qeyd olunur ki, Gürcüstan rəsmi Kiyevin yuxarıda sadalanan məsələlərə müvafiq reaksiya verəcəyini və bu kimi halların bir daha təkrarlanmayacağını təsdiqləyəcəyini gözləyir.

Ooktyabrın 29-da internetdə Mixail Saakaşvilinin “Rustavi-2” telekanalının baş direktoru Nika Qvaramiya və Təhlükəsizlik Şurasının keçmiş rəhbəri Qiqa Bokeriya ilə telefon danışığı yayılıb. Danışıq zamanı M. Saakaşvili şirkəti müdafiə etməyin yolları barədə məsləhətlər verir.

M. Saakaşvili səs yazısının yayılmasında Rusiya xüsusi xidmət orqanlarını günahlandırıb.



Sahib MUSTAFA
sahib1975.sm@gmail.com

## YAXIN ŞƏRQİN SAĞALMAZ YARASI – FƏLƏSTİN MÜŞKÜLÜ

**Yaxın Şərq hal-hazirda münaqişələrin bitib tükənmək bilmədiyi dünyanın ən qaynar nöqtəsinə çevrilmişdir. Bu coğrafiyada son bir neçə onillikdə baş vermiş çoxsaylı işğalçı və vətəndaş müharibələri regionun ümumi inkişafının önünə nəinki sipər çəkir, hətta bölgəni qan gölünə çevirməkdədir. Qeyd olunan regionda uzun illərdən bəri həllini tapmamış münaqişə ocaqlarından biri də İsrail-Fələstin problemidir. Son günlərdə münaqişə tərəfləri arasında artan toqquşma halları mövzunun aktualliğına dəlalət edir.**

Çözülməsi hər zaman gündəmdə olan İsrail-Fələstin münaqişəsinin beynəlxalq hüquq normaları və BMT Təhlükəsizlik Şurası tərəfindən qəbul edilmiş qətnamələr çərçivəsində həllini tapmaması narahatedici hal kimi qəbul edilməlidir. Lakin, görünür ki, "narahatçılıq" məfhumu tətbiqi siyasət elmində konkret "meqamaraq"larla bir kontekstdə işlədildikdə əhəmiyyət kəsb etməyə başlayır. Bundan başqa faktiki olaraq bir tərəfdə "əzən", digər tərəfdə də "əzilənin" varlığı və bu səhnəyə dünya siyasətində sözükeçən dövlətlərin həm susqun qalması, həm də görməzdən gəlməsi belə bir fikri irəli sürməyə əsas verir. Mövqeyimizi müdafiə etmək üçün münaqişənin haradan qaynaqlandığına qısaca nəzər salmaq yerinə düşərdi.

İlk öncə 1918-ci ilədək Fələstin torpağında yaşayan etnik ərəblərin sayca etnik yəhudilərlə müqayisədə üstünlüyü danılmaz bir faktdır. I Dünya müharibəsindən sonra Fələstin üzərində Böyük Britaniyanın mandatı təsdiq olunduqdan sonra dünyanın dörd bucağına səpələnmiş yəhudilər özlərinin vətəni hesab etdikləri Fələstin torpağına axışmağa başladılar. ABŞ və Böyük Britaniyanın himayəsini arxasında hiss edən yəhudilər İslam dünyası ilə əhatə olunmuş bir ərazidə Yəhudi dövlətinin yaranmasını tələb etdilər. Hadisələrin sonrakı axarının məntiqi nəticəsi kimi 29 noyabr 1947-ci ildə BMT Baş Assambleyası Fələstin torpağında yəhudi və ərəb dövlətlərinin qurulması haqqında qərar qəbul etdi. Qərara əsasən Fələstin ərazisinin 52%-i yəhudilərə, 46%-i ərəblərə, mübahisəli olduğu üçün isə 2% ərazi təşkil edən Qüds (Yerusəlim) şəhəri BMT-nin qəyyumluğuna verildi. 14 may 1948-ci ildə yəhudilər İsrail dövlətini yaratdıqlarını elan etdilər və bundan sonra baş vermiş bir neçə ərəb-İsrail müharibələri nəticəsində ərəblər üçün nəzərdə tutulmuş ərazilərin də 77%-i İsrail ordusu tərəfindən işğal edildi.

Hal- hazırda ABŞ tərəfindən dəstəklənən İsrail regionda bu dövlətin "ərköyün" uşağı rolunu icra edir. Əks təqdirdə baş vermiş ərəb-İsrail müharibələrində yenicə yaranmış bir dövlətin birdən birə bir neçə ərəb dövləti üzərində qalib gəlməsini düşüncəli beyinin məhsulu kimi qələmə vermək olmaz. Ərəb-İsrail münaqişəsinin dinc yolla həll edilməsi üçün İsrailin yalnız 1994-ci ildə Fələstin Milli Muxtariyyətini münaqişə tərəfi kimi tanımasını da Vaşinqtonun göstərişi hesab etmək olar. Bununla belə bölgədəki neftlə zəngin ərəb dövlətləri ilə münasibətlərinin tam qopma halına gəlməsini istəməyən ABŞ zaman-zaman özünü vasitəçi kimi də qələmə verir. Başqa bir tərəfdən İsrailin himayəçisi olan Ağ Evin onu ehtimal oluna biləcək istənilən təhlükədən quruyacağını söyləmək çətin deyil. 1977-ci ildə Misir prezidenti Ənvar Sədat dönəmində başlamış və 1978-ci il Kemp-Devid razılaşması ilə təsdiq edilən, həmçinin xələfi Hüsnü Mübarək tərəfindən davam etdirilən Misir-İsrail yaxınlaşmasında ABŞ-ın rolunun xüsusi vurğulamaq olar.

**Lakin 2012-ci ildə Misrin son 30 illik tarixində ilk dəfə keçirilən azad və demokratik seçkilərdə Məhəmməd Mursinin hakimiyyətə gəlməsi İsraili yenidən təşvişə saldı. ABŞ, Rusiya, İsrail, Kanada və s. dövlətlər tərəfindən terrorçu qruplaşma kimi tanınan HAMAS-la yaxınlığı olan "Müsəlman Qardaşları" təşkilatının bazası üzərində yaradılmış Məhəmməd Mursinin "Ədalət və Azadlıq" partiyası İsrail üçün real təhlükə idi. Cəmi bir il hakimiyyətdə qalan Mursi hakimiyyətinin hərbi xunta tərəfindən devirilməsinə özünü demokratiyanın carçısı hesab edən ABŞ-ın susması və lazımı təpki verməməsi diqqətdən qaçmamalıdır. Heç kimə sirr deyil ki, bu gün yəhudi lobbisinin ABŞ-ın xarici siyasətinə və bu ölkədə keçirilən prezident seçkilərinə təsiri danılmazdır. Ona görə də yaxın gələcəkdə Fələstinlə münasibətdə ərəblərin xeyrinə Vaşinqtonun mövqeyində radikal dəyişikliklər gözləmək çətindir. Lakin, bu Fələstin ərəblərinin dövlətçilik quruculuğundan vaz keçməsi anlamına gəlməməlidir.**

## NATO GENİŞMİQYASLI TRİDENT JUNCTURE-2015 TƏLİMLƏRİ KEÇİRİB

Mərkəzi Aralıq dənizi hövzəsində NATO-nun keçirdiyi Trident Juncture-2015 təlimləri son 10 ilin ən böyük manevridir. Təlimlərin açılış mərasimi İtaliyanın cənubundakı HHQ-nin bazasında olub.

Trident Juncture-2015 təlimlərinin coğrafiyası çox böyükdür. Təlimlər İtaliya, Portuqaliya, İspaniya, Kanada, Norveç, Almaniya, Belçika və Niderland, habelə Atlantik okeanı və Aralıq dənizində keçirilib. Təlimlərdə alyansa üzv olan 30 ölkədən 36 minə yaxın hərbi qulluqçu iştirak edib. Manevrlərin dəniz bölümündə 70 hərbi gəmi, 230 ədəd zirehli texnika və 140 təyyarə iştirak edib.

NATO-nun baş komandanı general Filipp Bridlav hərbi təlimlərin açılışındakı nitqində təlimlərdən güdülən əsas məqsədin təcavüzkarın hücumunun dəf edilməsi olduğunu vurğulayıb.

Alyansın baş katibinin müavini Aleksandr Verşbounun sözlərinə görə isə, qəfildən bir neçə bölgədə Rusiyanın hərbi mövcudluğunun genişlənməsini NATO-da əsas təhlükələrdən biri hesab edirlər.

## ABŞ SURİYANIN BÜTÖVLÜYÜNÜN SAXLANILMASI MƏSƏLƏSİNDƏ RUSİYA İLƏ RAZIDIR



ABŞ-ın Moskvadakı səfiri Con Tefft bəyan edib ki, Suriya dünyəvi dövlət kimi qalmalıdır, buna görə də onun dövlət təsisatları qorunmalı, «İslam dövləti" və digər ekstremist qruplar tərəfindən işğalı dayandırılmalıdır.

Onun sözlərinə görə, Vaşinqton Suriyanın bütöv və dünyəvi dövlət kimi saxlanılmasının vacibliyi, eləcə də ərəb xalqının öz taleyini seçkilər yolu ilə həll etməsi məsələsində Moskva ilə razıdır.

"Biz beş ildir davam edən bu qorxunc vətəndaş müharibəsinin siyasi həll tələb etməsilə razıyıq. İŞİD və digər ekstremist qrupların sonrakı işğallarının dayandırılması ilə razılaşırıq. Biz Suriya dövlətinin və dövlət təsisatlarının qorunmasının vacibliyi, Suriyanın bütöv və dünyəvi dövlət kimi qalması ilə razılaşırıq", – Con Tefft məlumat verib. Sonda diplomat əlavə edib: "Biz razıyıq ki, Suriya xalqı azad və ədalətli seçkilər yolu ilə öz taleyini həll etməlidir".

## 27 YAŞLI MÜSƏLMAN MÜHACİR İSVEÇİN TƏHSİL NAZİRİ OLDU



Müsəlman mühacir nazir oldu. Aida Xalzialik İsveçin təhsil naziri təyin edilib. O, ölkənin bütün tarixi ərzində ən gənc nazirdir.

Aida beş yaşı olanda Bosniya və Hersoqovinadan valideynləri ilə birlikdə İsveçə köçüb. O, ilk vəzifəyə 23 yaşı olarkən gəlib. İsveçin Xalmstad şəhər merinin müavini kimi özünün ilk postunu tutub.

İsveç rəsmiləri gənc qızı "qibtə olunan" adlandırırlar. Çünki bu yaşlarda siyasi karyera ilə məşğul olmaq hər kəsin işi deyil. Bir çox müsəlman KİV də artıq bu xoş xəbər barədə məlumat yayıb.

Aida Xalzialik 2014-cü il oktyabrın 3-dən İsveçin orta məktəb, yuxarı təhsil və təhsil standartları naziri vəzifəsində çalışıb. İsveç, ingilis, bosniya, xorvat və serb dillərini bilir.

Ümumiyyətlə isə, zamanla Avropanın siyasi səhnəsində müsəlmanların müvəffəqiyyətləri mübahisələr doğurub. A. Xalzialikin yeni vəzifəyə seçilməsi də bunlardan biridir. Rəsmi məlumatlara görə, miqrant axını olmamışdan əvvəl, İsveçin on milyonluq əhalisinin 500 min nəfərini müsəlmanlar təşkil edib. Lakin, hal-hazırda dəqiq say məlum deyil, bu da, Yaxın Şərqdə baş verən hadisələrlə bağlı qaçqınların İsveçə üz tutması ilə əlaqədardır.

## BMT DÜNYADA 60 MILYON QAÇQIN OLDUĞUNU AÇIQLAYIB

Suriyada 4 milyon vətəndaş ölkəsini tərk edib.

Bu barədə BMT-nin baş katibi Pan Gi Mun jurnalistlərə açıqlamasında deyib.

Onun sözlərinə görə, hazırda dünyada 60 milyon miqrant var.

"Ölkə daxilində baş verən problemlərə və böhranlara görə vətəndaşlar ölkələrini tərk etməyə məcbur olurlar. Son zamanlar Suriyada yaşanan böhrana görə 4 milyon suriyalı ölkəsini tərk edib. Miqrasiyadan daha çox Türkiyə, Livan, İraq, İordaniya kimi ölkələr əziyyət çəkir", - deyə BMT-nin baş katib Pan Gi Mun bildirib.

## İŞİD-İN ÖZ SIRALARINA DÖYÜŞÇÜLƏRİ NECƏ CƏLB ETMƏSİ MƏLUM OLUB

"İslam Dövləti" döyüşçüləri terror təşkilatına bu və ya digər yollarla cəlb etdikləri hər bir nəfər yeni üzvə görə 10 min dollara qədər mükafat alırlar.

Bu barədə Birləşmiş Millətlər Təşkilatının nümayəndəsi Elzbieta Karska Brüsseldə keçirdiyi mətbuat konfransında jurnalistlərə məlumat verib.

İŞİD-ə yeni üzvlərin qoşulmasını araşdıran komissiyanın rəhbəri olan Elzbieta Karskanın sözlərinə görə, yeni üzvləri İŞİD-in nəzarət etdiyi İraq, ya da Suriya ərazilərinə gətirənlərə 2-3 min, hətta 10 min dollara qədər mükafat verilir. O, qeyd edib ki, mükafatın məbləği yeni üzvlərin qabiliyyətindən asılıdır.

Əgər yeni gələn adam təhsillidirsə, məsələn, kompüter proqramlarını bilirsə, mükafatın məbləği də buna müvafiq olaraq artırılır.

ABŞ rəsmi orqanlarının məlumatına görə isə, 2011-ci ildən bu yana Suriyaya təxminən 100 ölkədən 30 mindən çox döyüşçünün gəldiyini bildirilir.

Məlumatda qeyd olunur ki, onların bir hissəsi artıq öz ölkələrinə geri qayıdıb, digər hissəsi isə silahlı qarşıdurmalarda öldürülüb.

# PARLAMENT KİV-Ə TƏZYİQLƏ BAĞLI BƏYANATI QƏBUL ETMƏDİ

Gürcüstan parlamenti oktyabrın 16-da keçmiş iqtidar partiyası "Vahid milli hərəkat"dan olan deputatların hazırladıqları "KİV-ə təzyiq faktlarının həyata keçirilməsi ilə bağlı" bəyanat layihəsini qəbul etməyib.

Parlamentdə iki gün müzakirə olunan bəyanat layihəsi hakim "Gürcü arzusu" koalisiyasından olan deputatlarla parlament azlığı arasında qarşılıqlı ittihamların səsləndirilməsi ilə yadda qalıb. Nəticədə layihəyə 148 deputatdan 28-i səs verib. 32 deputat əleyhinə olub.

"Gürcü arzusu"nun nümayəndələri müxalifətin təqdim etdiyi mətnlə razılaşmayıb. Layihədə deyilir ki, Gürcüstan icra və məhkəmə hakimiyyətinin "Rustavi-2"yə qarşı açıq-aydın əlaqələndirilmiş fəaliyyəti bu telkompaniyanın varlığına təhlükə yaradır, ifadə azadlığına, media plüralizminə, buna uyğun olaraq da avroatlantik inteqrasiyaya zərər vurur.

Parlament azlığı birinci kanalda siyasi şounun, "İmedi"də siyasi verilişlərin bağlanmasını və "Maestro" kanalında baş verənləri şübhəli hesab edir.

Bəyanat layihəsində deyilir ki, bütün bunlar 2016-cı il parlament seçkilərinin minimal demokratik standartlar çərçivəsində keçirilməsinə ciddi təhlükə yaradır.

"Gürcü arzusu" fraksiyasının sədri Qiya Volski belə ajiotajı məhkəməyə və hakimlərə təzyiq etməyə cəhd kimi qiymətləndirib.

# GÜRCÜSTAN MÜXALİFƏTİ ÖLKƏ KONSTİTUSİYASINA DÜZƏLİŞ ETMƏK NİYYƏTİNDƏDİR

Gürcüstan müxalifət partiyaları seçki sistemində dəyişiklik edilməsi üçün lazım olan imzaları toplayıb başa çatdırıblar. Bu barədə Vahid Milli Hərəkat partiyasından olan deputat Serqo Ratiani məlumat verib.

"İmza toplama prosesi sona yaxınlaşıb və demək olar başa çatmaq üzrədir. Hazırda səhvlərin aradan qaldırılması üçün yoxlama aparılır. Məsələlərin yekun razılaşdırılması üçün məsləhətləşmələr gedir", – Ratiani dəqiqləşdirib. O, qeyd edib ki, əvvəlcədən düşünmək lazımdır, yaxın gələcəkdə Gürcüstanın seçki məcəlləsi necə olacaq.

"Yeni sağlar" partiyasının lideri Mamuka Katsitadze bildirib ki, yaxın vaxtlarda imza blankları bir yerə toplanaraq, parlamentin prosedura məsələləri komitəsinə təqdim olunacaq. O, qeyd edib: "Əsas odur ki, parlamentdə bizim imzalar əsasında konstitusiya dəyişikliklərinin müzakirəsinə başlanacaq".

Gürcüstan Konstitusiyasında dəyişiklik etmək üçün sentyabrın 22-dən 2 parlament və 10 parlamentdən kənar müxalifət partiyası imza toplamağa başlayıb. Düzəlişlərin müzakirəsinə başlamaq üçün 200 min seçicinin imzası lazımdır.

# GÜRCÜSTAN PROKURORLUĞU ÖLKƏNİN BİRİNCİ PREZİDENTİNİN ÖLDÜRÜLDÜYÜNÜ İDDİA EDİR

Gürcüstanın istintaq orqanları ölkənin ilk prezidenti Zviad Qamsaxurdiyanın ölümü haqqında işə yenidən baxıb.

İş "qəsdən öldürmə" maddəsinə dəyişdirilib. Müstəntiqlərin fikirinə görə, hər şey siyasətçinin ölümünün intihar yox, məhz zorakılıqla olduğunu göstərir. Gürcüstan hakimiyyəti isə Qamsaxurdiyanın ölümündən keçən 20 ildən artıq müddətdə onun intihar etməsi versiyasına tərəfdar olub.

Gürcüstan baş prokurorluğu məlumat verib ki, yeni istintaq bir neçə ay əvvəl başlayıb, müstəntiqlər Qamsaxurdiyanın ailəsini dindirməyi, onun öldüyü yerə baxış keçirməyi və bir çox istintaq hərəkətləri həyata keçirməyi bacarıblar.

Prokurorluq belə qənaətə gəlib ki, 1994-cü ildə istintaq başdansovdu aparılıb və ölkənin birinci prezidentinin həqiqi ölüm səbəbini müəyyən etməyib.



Zviad Qamsaxurdiya 1993-cü ilin sonlarında həlak olub. 1994-cü ildə başladılmış istintaq nəticəsində onun intihar edərək, özünü öldürməsi elan olunub.

# TDU-NİN TƏLƏBƏLƏRİ REKTORUN İSTEFASINI TƏLƏB EDİBLƏR

Tələbə özünüidarəsinin nümayəndələri məlumat veriblər ki, İ. Cavaxişvili adına Tbilisi Dövlət Universitetinin rektoru Vladimir Papavanın istefası tələbilə aksiya oktyabrın 20-də universitetin həyətində keçirilib.

Tələbələrin sözlərinə görə, universitetdə ciddi infrastruktur problemləri müşahidə olunur, korpus qəza vəziyyətindədir, auditoriyalara su damır, ixtisassız kadrlar mühazirəçi vəzifəsi tuturlar, müdiriyyət isə tələbələrə diqqətsiz yanaşır.

"Dünənki görüşdə konkret məsələlər çox sərt şəkildə qoyuldu. Cavabında rektor bəyan etdi ki, bu barədə onun məlumatı olmayıb. Böyük bürokratik maşın olan universitetdə real problem durğunluqdur. Rebrendinq gerçək və olduqca sürətlə baş verməlidir ki, universitetdə inkişaf başlasın İctimai kanalın efirində tələbə özünüidarəsinin prezidenti Şalva Sabauri bəyan edib.

Tələbələr dəfələrlə rektordan universitetdə mövcud olan problemləri həll etməyi xahiş etsələr də, tələbələrin sözlərinə görə, Papavadan heç bir cavab alınmayıb.

# MİLLİ DEMOKRATİYA İNİSTİTUTU ÖLKƏMİZDƏ RƏY SORĞULARI KEÇİRİB

NDİ-nin araşdırmalarına görə, əgər parlament seçkiləri sabah keçiriləsi olsa "Gürcü arzusu" koalisiyasını 11%, "Milli hərəkat"ı isə 13% rəyi soruşulanlar dəstəkləyərdi.

"Əgər parlament seçkiləri sabah keçiriləsi olsaydı siz hansı partiyaya səs verərdiniz?" sualına rəyi soruşulanların 35%-i "bilmirəm", 14%-i "heç bir partiyaya", 13%-i "cavabdan imtina edirəm", 13%-i "Vahid Milli Hərəkata", 11%-i "Gürcü arzusu" koalisiyasına, 4,4%-i "İrakli Alasaniya – Azad demokratlar" və "Vətənpərvərlər alyansı"na, 3%-i "Leyboristlər partiyası"na cavabını vermişlər. 3% isə "başqaları"na kateqoriyasını seçmişdir.

Afayət AFİQ



# AZADLIQ ƏLİMİZİN ÇATMADIĞI ZİRVƏDİRMİ?

**Azad olmaq insan övladının ən ümdə hüquqlarından, insanı insan edən özəlliklərdən biridir. Bəs azadlıq necə olur? İnsan necə azad olur? Azadlığı istəyir, yoxsa sadəcə məhkumluğa yox deyir. Bəli, əslində azad olmaq deyə bir şey yoxdur. Zəncirlərə vurulmamaq var. Zəncirlərə yox demək var. Buruntaqlara qatlaşmamaq var, bu etirazın adıdır azadlıq...**

Deməli, insanın ruhunda, təbiətində azad olmaq var. Biz insan oğlu, iki qrupa bölünürük, azadlığı istəmirik qram-qram, zərrə-zərrə... İstəmirik. Çünki, ruhumuz buna alışıq deyil. Ancaq, olur hərdən bədənimizin oduna ruhumuzu da yandırıb, onu da saysız-hesabsız qəfəslər arasında məhkum həyatı yaşamağa məcbur edirik. Bütün bunlar fərdi xüsusiyyətlər olsa da, bəzən mühitin təsirindən, zamandan, məkandan və onlarca başqa səbəblərdən dolayı fərdlər kütlənin qurbanına çevrilir. Bəzi cəmiyyətlərdə bu yaxşı nəticələrə yol açsa da, bizim cəmiyyəti burulğana, bataqlığa salmaqdan başqa bir şeyə yaramır. Kütləyə qarışmaq əfsuslar olsun ki, hər zaman el ilə gələnin toy bayram olduğuna bizi inandıra bilmir. Xəta isə orasındadır ki, biz bunu ancaq və ancaq boğaza qədər çamura batdıqdan sonra anlayırıq.

Son iki ayda Gürcüstanda diriliş, hay-haray var. Ucundan-qulağından hər kəsin eşitmiş olacağına əminəm. "Rustavı 2" telekanalı ilə bağlı silsilə hadisələr, aksiyalar, məhkəmə prosesləri həyata keçirilir. Bu günlərdə insanların bircə dənə şüarı var – "söz azadlığı". Söz və fikir azadlığı bu gün gürcü cəmiyyətində onun nə olduğundan bixəbər olanların dilindən də düşmür. Onlar sözügedən televiziyanın yox, öz gələcəklərinin azadlığını müdafiə etdiklərini deyirlər. Candan, qandan düşürlər, lakin ideyalarından vaz keçmirlər. Haqlıdırlar. Bu cəmiyyətin son şansıdır, son çırpınışıdır. Bu məqamda Gürcüstan demokratiyası təslim olacağı təqdirdə, bir daha asanlıqla ayaqlaşıb, dik dayana bilməyəcək. Bunun fərqində olmaları çox yaxşıdır. Onlar küçələrdə, ekranlarda, azadlıq deyə qışqıra bilirlər. İnsan azad edilmir, insan azadlığı istəyir. Deməli, bu xalq da ağlamayana süd verilməyəcəyini anlamış durumdadır. Bundan gözəl nə ola bilər ki?! Heç nə!!!

Bu dövrün kölə olmaq üçün bir az gec olduğuna inanmaq lazımdır. Min dürlü bəla ilə, azar ilə vuruşduğumuz dünyada azad olmaq asan deyil. Anlayıram. Qəbul edirəm. İndi aramızdan neçələri nə qədər asılacağım, nə qədər çəkinəcəyim var deyə düşünür. Bəli, var. Öz əllərimizlə özümüzə elə bir çəpər toxumşuq ki, nəticəsində azadlığın qoxusunu belə duya bilmirik. Dörd divar arasındakı dustaq bizdən daha azad, bizdən daha geniş ürəkli olur. Onu həbsxana divarları sıxarkən, bizi göylərin sonsuzluğu da sıxır. "Qadağa"lar, "qorxu"lar, "olmaz"lar, "filankəs nə deyər"lər əlbəttə ki, bizə azadlıq anlayışının 17-ci əsrdəki formasını yaşatmaqdan başqa çarə buraxmır. Söz azadlığı ağzına gələni danışmaq deyil, söz azadlığı istədiyini danışmaqdan qorxmamaqdır. Böyüklüyü o qədər də böyük olmayan qorxu isə, onsuz da çox uzun olmayan həyatımızı ağu-zəhrimara çevirməyə yetir. Nəhayətində azad ola bilmirik.

**Ürəyimiz nə yaxşı partlamır, mən ona məəttələm... Nə yaxşı məhv olmur insan oğlu... Vurulduğumuz zəncirlərə aşiqmi olmuşuq biz?.. O dərəcədə ki, mazoxizmin pik həddindəyik, əziyyətlərimizdən həzz alırıq... Azadlıqdan o qədər uzaq düşmüşük ki, əlimizi uzatsaq göy üzünə toxunacağmıza inanarıq, azad ola biləcəyimizə yox...Qorxmamağı öyrənməliyik. Haqlı ikən haqsıza boyun əyməməyi... Hər ədalətsizliyin, hər insafsızlığın adını qədər qoymamağı öyrənməliyik... Biz bu azadlığa, insan kimi yaşamağa layiq olmayacaq heç nə etməmişik...**

# MƏN MÜSƏLMANAM, ANCAQ MƏNƏ TERRORÇU DEYİRLƏR

*Bu yazını əslində çoxdan yazmağı düşünürdüm. Ancaq bir neçə gün əvvəl baxdığım bir videoçarx məni bir daha əmin etdi ki, bu yazı artıq yazılmalıdır. Bu başlığı da elə o videodan götürdüm: "Mən müsəlmanam, ancaq mənə terrorçu deyirlər" yazmışdı. Müsəlman əslində güvənilən bir insan deməkdir.*

*Müəlmanla qarşılaşıldığında ilk sözü məndən sənə zərər gəlməz mənasını verən SALAM olar.*

Ancaq bu gün nə yazıq ki, İslamla heç bir əlaqəsi olmayan və İslam adına danışan bir çox qruplar İslama ləkə gətirmək məqsədi ilə hər cür çirkinliklərə əl atırlar. 11 sentyabr hadisəsindən sonra bu mübarizə daha da kəskinləşməyə başladı. Hər tərəfdə qan, körpə uşaq, yaşlı, qadın demədən hər kəs qətlə yetirilir. Amma İslam dini, Quran və peyğəmbər bütün bunları qadağan edir.

Həzrəti peyğəmbər hər zaman öz əsgərlərinə bitkilərə, abidələrə, ən əsası da yaşlılara, körpələrə, qadınlara və dinc əhaliyə zərər verməmələrini tapşırmışdır.

Bu gün İslam adına danışanlar Qurani Kərimdəki ayələri özlərinə sərf edən şəkildə yorumlayaraq, hərəkət edirlər. Ancaq döyüş ilə əlaqədar ayələri Quranın bütünlüyü içində qiymətləndirmək lazımdır. Bütün bu iddiaların əksinə, Qurana görə döyüş müdafiə məqsədli olmalıdır. Başqa insanların torpaqlarını fəth etmək üçün edilən döyüş Qurana görə dini bir döyüş deyildir. İslam dövlətləri tarix boyunca fəth məqsədi ilə bəzi döyüşlər etmiş ola bilər. Lakin bunların hamısı dini döyüşlər deyil, siyasi döyüşlərdir. Allah bu tərz bir döyüşü qadağan etmişdir. Bəqərə surəsində belə buyurulmaqdadır:

"Sizinlə döyüşənlərə qarşı Allah yolunda döyüşün, (ancaq) həddi aşmayın. Əlbəttə Allah, həddi aşanları sevməz. Onları, tapdığınız yerdə öldürün və sizi çıxardıqları yerdən siz də onları çıxarın. Fitnə, öldürməkdən betərdir. Onlar, sizə qarşı döyüşənə qədər siz, Məscidi Haram yanında onlarla döyüşməyin. Sizinlə döyüşsələr siz də onlarla döyüşün. Kafirlərin cəzası işdə belədir. Onlar, (döyüşə) son versələr (siz də son verin); şübhəsiz Allah, bağışlayandır, əsirgəyəndir. (Yer üzündə) Fitnə qalmayıncaya və din (tək) Allahın olana qədər onlarla döyüşün. Əgər imtina etsələr, artıq zülm edənlərdən başqasına qarşı düşmənlik yoxdur". (Bəqərə Surəsi, 190-193)

Bu ayələrdən aydın olduğu kimi döyüş ancaq döyüşənlərə qarşı edilər. Üstəlik bu döyüşdə həddindən artıq gedilməməsi üçün Allah inananları xəbərdar etməkdədir. Döyüş əsnasında qarşı tərəf döyüşə son verib aman diləsə, müsəlmanlar da buna uyarlar və döyüşə son verərlər. Quranda döyüşün ancaq müdafiə məqsədli olduğunu yuxarıdakı ayələrdə gördük. Bunun xaricində hücum olduğunda isə Allah müsəlmanların bu təcavüzkarlığa qarşı cavab vermələrini və bütün gücləriylə bu təcavüzkarlarla döyüşmələrini istəyir. Tövbə surəsindəki ayələr belədir:

"Andlarını pozan, elçini (yurdundan) sürməyə çalışan və sizinlə ilk dəfə (döyüşə) başlayan bir birliklə döyüşməzsinizmi? Qorxursunuzmu onlardan? Əgər inanırsınızsa, özündən qorxmanıza Allah daha layiqdir. Onlarla vuruşun. Allah, onları sizin əllərinizlə cəzalandırsın, xor və alçaltsın və onlara qarşı sizə zəfər versin, möminlər birliyini şəfaya qovuşdursun. Və ürəklərindəki hirsi qaldırsın. Allah dilədiyinin tövbəsini qəbul edər. Allah biləndir, hökm və hikmət sahibidir". (Tövbə Surəsi, 13-15)

Bunun xaricində bir də Allah, müsəlmanlardan zəif olan, əziyyət çəkən, möhtac insanlar üçün yenə onları qorumaq məqsədi ilə döyüşə icazə verməkdədir:

"Sizə nə olur ki, Allah yolunda və: "Rəbbimiz, bizi xalqı zalım olan bu ölkədən çıxar, bizə qatından bir vəli (qoruyucu sahib) göndər, bizə qatından bir köməkçi göndər" deyən kişilər, qadınlar və uşaqlardan zəif buraxılmışlar adına döyüşmürsünüz?" (Nisa Surəsi, 75)

Bu cür bir döyüş də şiddətdən deyil əksinə mərhəmətdən doğulmaqdadır. Zalıma qarşı İslam, məzlumu əhatə edici və qoruyucu olunmasını inananlara nəsihət edir. Sülh halında isə Allah, iman edənlərdən yaxşılığı və ədaləti istəyir. Burada məqsəd döyüşə qarşı sülhün qorunmasıdır:

"Allah, sizinlə din mövzusunda döyüşməyən, sizi yurdlarınızdan sürüb çıxarmayanlara yaxşılıq etmənizdən və onlara ədalətli davranmanızdan sizi çəkindirməz. Çünki Allah, ədalət edənləri sevər. (60 Mumtəhinə Surəsi, 8)

Qurana görə qarşınızdakı qrup hansı dindən olursa olsun əgər barış içində yaşamaq istəyirsə, bunlara qarşı müsəlman yalnız dostanə bir münasibət qurmalıdır. Bu səbəbdən bu ayələr bir bütünlük içində oxunub qiymətləndirildiyində heç bir ziddiyyət olmur.

Hacı BƏKİROĞLU

# II İLYA XARİCDƏ YAŞAYAN GÜRCÜLƏRİ VƏTƏNƏ QAYITMAĞA SƏSLƏYİB



Oktyabrın 18-də bütün Gürcüstanın Katolikos-Patriarxı II İlya bazar günü moizəsində xaricdə yaşayan gürcüləri vətənə qayıtmağa səsləyib.

"Bu gün Gürcüstanda yanlış bir adət həyatımıza daxil olub – analar öz ailələrini qoyaraq, xaricə gedir, ərləri və uşaqları isə evdə baxımsız qalırlar. Bəziləri düşünürlər ki, iş yoxdur, harada işləyim, bu isə doğru deyil. Tanrı bizə elə bərəkətli torpaq verib ki, əgər insan onda çalışsa, xoşbəxt olar. Buna görə də hamıya müraciət etmək istəyirəm, xaricə gedənlərə müraciət etmək istəyirəm, evinizə qayıdın. Eviniz daha yaxşıdır", – II İlya bəyan edib.

Onun sözlərinə görə, dünyada Gürcüstan kimi ölkə tapmaq olmaz.

"Əgər bir iş özünü doğrultmasa, başqası ilə, üçüncüsü, onuncusu ilə məşğul olun. Düşünürəm ki, insanlarımız öz vətənlərinə qayıdacaq...", – patriarx qeyd edib.

"Misirdə fəaliyyət göstərmiş, rahibliyin böyük qurucusu Müqəddəs Böyük Anton Tanrıdan soruşur ki, nə etmək lazımdır və o, ona cavab verir: ibadət et və işlə. Bizim bax, riayət etməli olduğumuz yol budur. İbadət etmək və zəhmət çəkmək! Diqqət verin, birinci sırada ibadətdir. Daha doğrusu ibadət öndə olanda zəhmətə xeyir-dua verilir", – Patriarx bu sözlərlə xalqı ibaədətə və zəhmətə səsləyib.

# KVEMO KARTLİDƏ QIZLARIN HÜQUQLARI İLƏ BAĞLI GÖRÜŞLƏR KEÇİRİLİB



Barışıq və vətəndaş bərabərliyi məsələləri üzrə dövlət nazirliyinin təşkilatçılığı ilə Kvemo Kartli regionunda qızların hüquqları ilə bağlı görüşlər keçirilib.

Barışıq və vətəndaş bərabərliyi məsələləri üzrə dövlət nazirinin köməkçisi Zaur Dargallının bildirdiyinə görə, dövlət naziri aparatının və "İnsan hüquqları üçün əməkdaşlıq" təşkilatının nümayəndələri, ekspertlər məktəb şagirdlərinə, valideynlərə və müəllimlərə İstanbul konvensiyasının ratifikasiyası, qadınlara yönəlmiş zorakılıq, erkən evlilik məsələləri və uşaq hüquqları konvensiyasının əsas prinsipləri haqqında məlumat veriblər. Görüşlər oktyabrın 29-30-da Bolnisi və Dmanisi munisipolitetlərinin orta məktəblərində keçirilib.

Sözügedən görüşlərdə 8-12-ci sinif şagirdləri – 200-ə qədər məktəbli qız, onların valideynləri və müəllimləri iştirak ediblər. Analoji görüşlər noyabr ayında Kaxeti, Marneuli və Qardabani məktəblərində də keçiriləcək.

# ANAR RAFİQOĞLU ZARAFATLARI İLƏ TAMAŞAÇILARI BİR DAHA GÜLDÜRDÜ



Oktyabrın 21-də paytaxt Tbilisinin Atoneli teatrında gənc aktyor Anar Rafiqoğlunun "Zarafat Kolleksiyası" adlı "stand-up komediya"sı (birnəfərlik komediya) oynanılıb. Tamaşanın açılışını təşkilatçılardan biri olan Amil Bayramov edib. Anar Rafiqoğlu "stand-up komediya"sahəsində fəaliyyət göstərən ilk və hələlik yeganə Gürcüstan azərbaycanlısıdır.

Şota Rustaveli adına Tbilisi Dövlət Teatr və Kino Universitetinin tələbəsi olan Anar Rafiqoğlunun özünün qələmə aldığı komediya müəllif tərəfindən də ifa olunub. İki saata yaxın davam edən "Zarafat kolleksiyası" ilə gənc aktyor tamaşaçılara xoş anlar yaşada bilib. İki hissədən ibarət olan tamaşanın fasiləsində gənc musiqiçi Hacı Hacıyev canlı ifaları ilə tamaşaçıların qəlbini oxşamağı bacarıb.

Tamaşanın digər təşkilatçısı Afayət Əliyeva tamaşanın yaxın vaxtlarda regionlarda da nümayişinin nəzərdə tutulduğu barədə məlumat verib.

Xatırladaq ki, "Zarafat Kolleksiyası" gənc aktyorun bu janrdakı üçüncü tamaşasıdır. O, 2012-ci və 2014-cü illərdə "stand-up komediya" tamaşaları hazırlayaraq, paytaxt Tbilisidə və Rustavidə nümayiş etdirmişdi.

Tamaşanın biletləri qısa müddət ərzində satılıb qurtarmışdır.

Qeyd edək ki, müxtəlif mətbuat orqanları, o cümlədən də qəzetimizlə əməkdaşlıq edən Anar Rafiqoğlu həm də istedadlı qələm sahiblərindən biridir. O, hekayələri və publisistik yazıları ilə vaxtaşırı oxucuların görüşünə gəlməyi də unutmur. "Yeni yol" olaraq biz də öz tərəfimizdən gənc aktyora yaradıcılıq uğurları arzulayırıq.

"Yeni Yol"

# TARİXİ TOPOQRAFİK XƏRİTƏLƏRİN ELEKTRON ARXİVİ YARADILIR

Gürcüstan ədliyyə nazirliyinin milli ictimai reyestr agentliyi tarixi topoqrafik xəritələrin elektron arxivinin yaradılması üzərində işləyir.

Arxivdə müəyyən hissəsi yeganə nüsxə ilə bizə gəlib çatmış 1:2000 və 1:5000 miqyaslı 1550 nadir xəritə birləşdirilir. İctimai reyestrin səyi ilə geodeziya-kartoqrafiya fondunda kağız şəklində saxlanılan xəritələr elektron daşıyıcıya yazılır. Onların elektron kataloqu və axtarış parametrləri yaradılır ki, bunun köməyi ilə nomenklatura üzrə istənilən xəritəni çətinlik çəkmədən tapmaq mümkün olacaq.

90%-dən çox tarixi xəritə artıq rəqəmsal formata keçirilib. Onların elektron versiyaları mərhələlərlə İctimai reyestrin veb səhifəsinə (www.reestri,gov.ge) yüklənir və arzu edən hər kəs bundan istifadə edə biləcək.

Xatırladaq ki, bu nadir tarixi dəyəri olan xəritələr 1953-1959-cu illərdə yaradılıb.

# GÜNDƏMDƏN DÜŞMƏYƏN MƏKTƏB MÖVZUSUNU ƏKS ETDİRƏN BAXIŞLAR

*Hazırda ölkəmizdə pis-yaxşı fəaliyyətini davam etdirən yeganə müəssisə məktəbdir. Bu, kənd yerlərində daha tez nəzərə çarpır. Nədən ki, kəndin barmaq hesabı işləyən idarələrinin başında məktəb gəlir. Bütün cəmiyyətin gözü məktəbdədir və ya gözü məktəbin üstündədir. Toyda da, vayda da məktəb mövzusu gündəmə çıxarılır, məktəb mövzusu dartışılır. Ay məktəb belə getdi, ay məktəb dağılıb gedir, ay məktəbin yiyəsi yoxdur və bu kimi neçə söz-söhbət. Demək olar ki, 20 ildir bunları eşitməkdəyik, 20 ildir təkrarlanan bu söz-söhbətdən yorulmaq bilmirik. Ancaq nə məktəb dağılıb qurtarmır, nə də məktəbin yiyəsiz qalmasını görürük. Bizim toy-vay ekspertlərimizin qənaətlərinə rəğmən məktəb yaşamaqda davam edir. Və ağzını Allah yoluna qoyub danışanlardan soruşmaq istəyirsən ki, başınıza dönüm, siz nə vaxtdan məktəb üzrə ekspert olubsunuz və ya sizə bu ekspertlik statusunu-hüququnu kim verib, bizim xəbərimiz olmayıb?*

Düzdür bəzən səsləndirilən bu fikirlərdə müəyyən həqiqət payı olur. Ancaq mühakimə və müzakirələrdə əndazəni aşan cəfəng fikirlərin ortaya atılması minlərlə müəllimin heysiyyatına toxunmaya bilməz, minlərlə maarif işçisinin əməyinin üstündən xətt çəkmək ən azından nankorluqdur. Məktəbə bu cür münasibətin sərgilənməsi ömrünü-gününü sənətinə həsr etmiş, saçını-saqqalını bu yolda ağartmış insanlarımıza qarşı haqsızlıqdır. Məktəbin şagird-müəllim-ailə üçbucağında özünü doğrultması bəllidir, cəmiyyətin bu üçbucağa əlavə olunması ilə dördbucaqlının alınması da məqbul görünür. Ancaq istənilən halda bunlardan birinin əndazəni aşması, ifrat qiymətləndirmə üslubunu seçməsi ikrah doğurur. Bu qiymətləndirmənin mənfi-müsbət yöndən olması məsələnin mahiyyətini dəyişmir. Heç mən müəllimin, ümumilikdə məktəbin öz funksiyasını da şişirtməsinin tərəfdarı deyiləm. Hətta müəllimin özünü xalq fədaisi kimi təqdim etməsini də bəyənmirəm. Bütün hallarda müəllim öz seçdiyi peşənin icraçısıdır. Bu başqa bir məsələdir ki, xalqın gözündə bu peşə müəyyən sakrallıq qazanıb, xalq bu peşə sahiblərinə binayi-qədimdən hörmət-izzət sahibi kimi baxıb. Ancaq ərz edim ki, heç bunlar da müəllimə özünütərif mərəzinə yoluxmaq haqqı vermir, özünə vurğunluq kimi bir bəlaya mübtəla olmasına bəraət qazandırmır.



Mən cəmiyyətimizin məktəb mövzusunu gündəmdə saxlamasını onun maarifə, elmə-biliyə önəm verməsi kimi qavrayıb, qiymətləndirirəm. Sağlam düşüncə ilə məktəbin istənilən probleminin müzakirə olunmasına, müəyyən qənaətlərin əldə olunmasına tərəfdar olduğumu da söyləyim. Nədən ki, məktəb istənilən halda toplumun inkişafının, gələcəyinin bazasıdır.

Məktəblərdə mövcud olan ən xırda qüsurun, ən kiçik çatışmazlığın, əhəmiyyətsiz görünən problemin cəmiyyətdə əks olunacağını, özünü göstərəcəyini hamımız da ovcumuzun içi kimi bilirik. Ancaq məktəblərimizdə bu və ya digər problemin mövcudluğu, obyektiv və ya subyektiv səbəbdən müəyyən müşküllərin varlığı isə o anlama gəlməməlidir ki, məktəb dağılır, məktəbin yiyəsi yoxdur. Artıq bunun problemə düzgün yanaşma olmadığını söyləmişik. Dövlətimizin məktəbləri yaddan çıxarmasını səsləndirməmiz belə tərəfimizdən ədalətsizlik olardı. Nədən ki, bütün iqtidarlar dönəmində məktəb prioritet məsələ olaraq saxlanmış və bu gün də belədir, gələcəkdə də belə olacağına inanırıq.

Məktəblərimizin hansı problemləri var? Ən yaxşısı bu problemləri sıralayaq və həmin problemlərdən çıxış yolları barədə fikirlərimizi səsləndirək.

Ən başda müəllim çatışmazlığından danışmaq gərəkdir. Bunu bir neçə dəfə də vurğulamışıq, dövlət rəsmilərinin ağzından da eşitmişik ki, ölkəmizdə müəllim kadrlarının çatışmazlığı var. Ucqarlarda, əldən-ayaqdan uzaq bölgələrdə bu özünü kəskin şəkildə göstərir və bu gedişlə yaxın bir neçə il ərzində düzəlməsi də mümkünsüz görünür. Ölkəmizdə pedaqoji kadrlarmı yetərli deyil, yoxsa ali təhsil ocaqlarımızmı bu kadrları hazırlamaqda çətinlik çəkirlər? Əksinə bizim kifayət qədər ehtiyat müəllim ordumuz mövcuddur. Bir çox məktəblərimizin kadrlara ehtiyac duyduğu, xəstənin təzə qana ehtiyacı olduğu kimi məktəblərin gündüz alıçıraqlı müəllim axtardığı bir məqamda müəllimləri niyə məktəbə gətirmək mümkün olmur? Burada məktəbimizin ikinci ən əsas problemi başlayır və ya pedoqoqların məktəbə gəlmək istəməmələri, məktəbdən uzaqlaşmaq istəkləri barədə danışmalı oluruq.

Müəllim olub işləmək istəyənlərin sayı ildən ilə azalır. Hətta məktəbdə çalışanların bir çoxu da əlacsızlıqdan hələlik məktəbdədirlər. Bir çarə tapa bilsələr, indi çoxdan məktəbin daşını atmışdılar. Artan qiymətlər fonunda müəllimin aldığı qəpik-quruş onun ailəsinin təminatını ən yaxşı halda 10 gün ödəyir. Müəllim banklardan kredit, qohum-əqrabadan borc götürmək məcburiyyətində qalır. Maaşının vaxtına qədər müəllim bəzən alacağı maaşın iki-üç misli qədər borc almalı olur. İndi isə gəlin sözü statistikaya verib, rəqəmləri danışdıraq. 2015-2016-cı tədris ilinin əvvəlindən müəllimin maaşının 14% artırılması və 2016-cı ilin aprelindən daha 50 lari artırılacağı vədi müəllimin güzaranında inanmıram ki, böyük dəyişiklik yaratsın. Ancaq neynəməli, bəy verən atın dişinə baxmazlar, təsdiqlənən 14% nəğddir, buna da bərəkət deməliyik. Apreldə alacağımız 50 larinin də ümidilə yaşamağa dəyər. Bəs deməyiblərmi, yeməkdən ümid yaxşıdır, təki alacağın olsun. Müəllimi məktəbdən didərgin salan maaşların azlığıdır. Bir onu demək bəs edər ki, yaxın-uzaq ölkələrdə müəllimin qazancı ilə bizim müəllimin gəlirini müqayisə etmək belə gülüncdür. İki-üç ölkədən gətirəcəyim nümunə ümidvaram ki, sizə gerçəkliyi tam çılpaqlığı ilə anladacaq. Məsələn, Lüksemburqda müəllim nə az, nə çox 5653 avro maaşa qol çəkir. Almaniyada 3550 avro maaş alan müəllim, ABŞ-da 2600 avro aylıq qazanca sahibdir. Avropada ən az maaş Polşa müəllimlərinin qismətinə yazılıb. Cəmi 999 avro. Qonşu Türkiyədə isə müəllimlər 800 avro gəlirlə keçinirlər. Postsovet ölkələrində ən yüksək maaş Estoniyadadır. Eston həmkarlarımız 745 avro aylıq gəlirə malikdirlər. Pulunun çoxunu silaha xərcləyən nəhəng Rusiyanın müəllim ordusu ortalama 545 avro maaşa qol çəkir. Fikrimcə, gətirilən misallar məsələnin mahiyyətini anlatmaq baxımından yetərlidir, bəlkə də artıqdır.

Məktəb problemi ilə bağlı fikir və düşüncələrimizi gələn sayımızda da davam etdirmək niyyətindəyik.

A. MUXTAROĞLU

Elsevər ELDAROĞLU
elseverahmedov88@gmail.com



# TEXNOLOGİYAYA YİYƏLƏNMƏYİ ZƏRURİ EDƏN AMİLLƏR

**Ümumiyyətlə, biz burada texnologiyanın gətirdiyi yeniliklərdən və onun sürətli inkişafından bəhs edirik. Yaxşı bu sürətli inkişafı izləməyin və texnologiyadan məhsuldar bir şəkildə istifadə etməyin yolu haradan keçir?**

Əlbəttə ki, təhsildən. Təhsil, təkbaşına irdələniləcək bir mövzu deyil. Bir çox anlayış, xüsusilə də mədəniyyət, ünsiyyət paralel araşdırılmalıdır. Texnologiya mədəniyyəti dediyimiz anlayış insanların texnologiyanın təsirlərini, xüsusiyyətlərini bilməsi və ümumi xəttləri ilə tərifini anlamasıdır. Son illərdə hər fürsətdə diqqət çəkməyə çalışdığımız Texnologiya Cəmiyyəti yaxın gələcəkdə bir zərurət halına gələcəkdir. Bu mədəniyyətlə addım atmağı bacarmayan cəmiyyətlər geri qalmağa məhkum olacaqlar. Yaxın gələcəkdə təqdim olunan və gələcəkdə davam edəcək elektronik xidmətlər, texnologiya təhsilinin nə qədər lazımlı olduğunu və irəliləyən müddətlərdə də zərurət halına gələcəyini göstərməkdədir.

Bizə təqdim edilən texnoloji nemətlərdən faydalanmaq; ortaq texnologiya mədəniyyəti meydana gətirəcək bir millət ola bilmək; texnologiyanı tanıtmaq və tədris edərək fərdlər yetişdirmək; bu yeni nəsilin texnologiyadan yaxşı istifadə edə bilən və inkişaf etdirən kəslər olmasını təmin etmək; ehtiyacları istiqamətində texnologiya israfı etmədən doğru təchizat seçə bilən fərdlər yaratmaq; fərqli cəmiyyətlərin ortaq dili olan texnologiyanı bilən vision sahibi dünya vətəndaşları ilə həmsöhbət olmaq üçün texnologiyanı öyrənməliyik.

Hər hansı bir təhsil ilə müqayisə edildiyində, texnologiya təhsilini ayıran ən diqqətə çarpan xüsusiyyət onun çox sürətli inkişafıdır. Bu və aşağıda sıralayacağaım səbəblər üzündən texnologiya təhsili söhbət mövzusu olduqda onun əhatə dairəsini dəqiq təyin edə bilmirik :

Texnologiya sahəsindəki bu sıx inkişaf və dəyişmələr digər sahələrə də təsir etməkdədir; dəyişmə və inkişaflar nəticəsində yeni peşə sahələri ortaya çıxmaqdadır; mövcud iş həyatımızın məhsuldarlığını artıracaq və iş proqramlarımızı dəyişdirəcək inkişaflar olmaqdadır.

Yaxşı bir təhsil verilə bilməsi üçün təməl əsas yaxşı bir təhsil məzmunu və proqramı hazırlanmasıdır. Təhsil məzmunu hazırlama metodologiyalarından fərqli olaraq, texnologiya təhsil məzmunu üçün başqa faktorları da ayrıd etmək lazımdır. Yaxşı, bəs niyə texnologiya təhsilinin məzmununu hazırlamaq bu qədər diqqət tələb etməkdədir? Cavabı çox sadədir. Əvvəlcə təhsilin əhatə dairəsindən bəhs edərkən ifadə etdiyim kimi, texnologiya sahəsində olan inkişaf bir çox sahələrə də təsir edir. Bunun xaricində fərqli sahələrə təsir edən texnologiyanın ortaq məxrəclərini tapıb ortaya çıxarmaq lazımdır. Bütün bunları nəzərdə tutaraq, texnologiya təhsili yaradılarkən, diqqət yetirilməsi lazım olan ünsürlərdən bir neçəsi aşağıdakılardır:

Təhsil məzmunu yenilənməyə uyğun bir şəkildə hazırlanmalıdır. Hazırlanacaq təhsil proqramı fərqli səviyyələr nəzərə alınmaqla hazırlanmalıdır. Digər təhsil sahələri ilə qarşılıqlı əlaqəyə açıq şəkildə olmalıdır. İzah ediləcək mövzu əlaqədar hissələrə ayrılmalı və təməl anlayışlar ilə alt anlayışlar arasında əlaqə olmalıdır. Əlaqədar ola biləcək peşə sahələrinə də uyğun hazırlanmalıdır.

Bu ana qədər izah etdiklərimin bir xülasəsi olaraq, texnologiya təhsilinin məqsədlərini aşağıdakı kimi sıralaya bilərik :

Elmi və texnoloji qanunların qavranmasını təmin etmək. Texnologiyanın cəmiyyətdəki yerini ifadə etmək, texnologiya mədəniyyətinə sahib fərdlər yetişdirmək. Həm ictimai, həm də fərdi həyatda texnologiyanın təsirlərini bilmək. Araşdırmaçı və inkişaf etdirən fərdlər yetişdirmək.

**Nəticə etibarı ilə ictimai texnologiya mədəniyyətimizi yaratmamız lazım olduğu ortaya çıxır. Hətta mütəxəssislərin informasiya sahəsi üçün Milli İnformasiya kimi müəyyənləşdirdikləri və hər detalı ilə bizə aid texnologiyaların olması lazımdır. Texnologiyanın istifadəsinə hakim, inkişaf etdirən və araşdırmaçı fərdlərdən ibarət bir cəmiyyətə qovuşmamız diləyiylə yazıma nöqtə qoyuram.**

HAQQIN SÖZÜ-SÖZÜN HAQQI.

# Yeni YOL

31 oktyabr 2015-ci il
№0010 (10)

yeni_yol@mail.ru | İCTİMAİ QƏZET | “იენი იოლი” საზოგადოებრივი გაზეთი | qəzet 17 iyun 2015-ci ildən nəşr olunur

## RUSTAVİDƏ “MİLLİ FESTİVAL 2015-2016” KEÇİRİLİB



Oktyabrın 26-da və 27-də Rustavi şəhərində Qiqa Lortkipanidze adına teatrın səhnəsində Gürcüstan mədəniyyət və abidələrin mühafizəsi nazirliyinin və Gürcüstan dövlət milli muzeyinin birgə təşkilatçılığı ilə”Milli festival 2015-2016 “ müsabiqəsi keçirilib.

“Milli festival 2015-2016”nın regional turunda Kvemo Kartli regionunda fəaliyyət göstərən müxtəlif bədii kollektivlər, rəssamlar, toxucular, fərdi ifaçılar, xalq çalğı alətləri ansamblları, ailə ansamblları iştirak edərək, öz istedadlarını nümayiş etdiriblər. Qardabani rayonu festivalda şifahi xalq ədəbiyyatı, təsviri incəsənət və instrumental ifaçılıq kimi sahələrdə təmsil olunub.

Xatırladaq ki, festivalda Qardabani rayonunun Nəzərli kəndindən gənc tarzən Səlahəddin Piriyev və Qardabanidən rəssam Rasim Həsənov iştirak ediblər. İnanırıq ki, onlar festivalda qazanacaqları uğurlarla ümidlərimizi doğruldacaqlar.

## QARDABANİDƏ “İNSAN HƏYATININ DƏYƏRİ” ADLI ƏDƏBİ MÜSABİQƏ KEÇİRİLİR

2015-ci ilin noyabrın 16-da saat 14:00-da Qardabani mədəniyyət evində “İnsan həyatının dəyəri” adlı ədəbi müsabiqə keçiriləcək. Müsabiqə 2008-ci ilin avqust müharibəsində həyatını itirən qardabanili əsgərlərin xatirəsinə həsr olunur.

Müsabiqənin əsas məqsədi isə Qardabanidə yaşayan, 14-28 yaş arası gənclərin və onların əsərlərinin tanıdılmasıdır. İştirak etmək istəyənlər “İnsan həyatının dəyəri” başlıqlı əsərlərini noyabr ayının 10-a qədər literaturuli.konkursi@gmail.com ünvanına göndərərək, müsabiqəyə qatıla bilərlər. Əsərlər ədəbiyyatşünaslar və dilçilər tərəfindən qiymətləndiriləcək, qaliblər müəyyənləşdiriləcək. Noyabrın 16-da seçilmiş üç qalib müxtəlif qiymətli hədiyyələrlə və diplomlarla mükafatlandırılacaqlar.

Layihə Qardabani bələdiyyəsinin elm, mədəniyyət, idman və gənclər şöbəsinin maliyyə dəstəyi ilə hər il həyata keçirilir.

## PORTAĞALIN QABIĞI DA FAYDALIDIR



Portağal çox dadlı və faydalı meyvədir. Bunu hamı bilir.

Lakin adətən fikirləşmədən atdığımız portağal qabıqları da çox faydalı məhsuldur.

Portağal qabıqları efir yağları, vitaminlər, minerallar, bioflavonoidlərlə zəngindir. Portağal qabıqlarından çox xeyirli müalicəvi içki hazırlamaq olar. Bu içki immun sistemini gücləndirir, orqanizmi toksinlər, şlaklar, ağır metallar və s. ziyanlı maddələrdən təmizləyir, ürəyə və damarlara müsbət təsir edir.

Bu içkini hazırlamaq üçün 1 iri portağalın qurumamış, təzə qabıqları götürülür. Portağal qabıqları blenderdə əzilir, üzərinə 1 litr otaq temperaturunda olan su əlavə edilir və 1 gün ərzində otaqda saxlanılır. 1 gündən sonra içki yaxşı süzülür, zövqə görə bal və yarım limonun şirəsi əlavə olunur və yaxşı qarışdırılır.

Bu içki soyuqdəymə və qrip xəstəlikləri zamanı da çox yaxşı müalicəvi kömək edir.

BİLDİRİŞ

“Kosalı” r/k kooperativinin ləğvolunması baş verib.

Kreditorlardan və digər maraqlanan şəxslərdən xahiş edirik ki, kooperativin: Qardabani, Kosalı kəndi – hüquqi ünvanına müraciət etsinlər.

Telefon: 599 10 67 33

განცხადება

გაუქმდა კორპორაცია რ/კ „ქესალო“.

კრეტიდორებსა და სხვა დაინტერესებულ პირებს ვთხოვთ, მოგვმართონ კორფორაციის იურიდიულ მისამართზე: გარდაბნის რაიონი, სოფელი ქესალო.

ტელ: 599 10 67 33

## TÜRKİYƏNİN İLK DÖYÜŞ TƏYYARƏSİNİN İSTEHSALI NƏZƏRDƏ TUTULUR



Türkiyənin aerokosmik sənaye şirkəti TÜSAŞ və Hərbi Hava Qüvvələrinin istehsal olunacaq yerli təyyarə modelini artıq müəyyənləşdirdikləri bildirilir.

2013-cü ildən etibarən 3 modelin üzərində araşdırma aparan TÜSAŞ şirkətindən verilən məlumata görə, nəhayət istehsal üçün iki motorlu FX1 tipli təyyarəninin seçildiyi qərara alınıb.

Milli döyüş təyyarəsi istehsal etmək üçün TÜSAŞ və Hərbi Hava Qüvvələrinin hələ 2011-ci ildən araşdırma apardığı heç kəsə gizli deyildi. Amma müzakirə mövzusu istehsal olunacaq təyyarənin bir, yoxsa iki motorlu olması ilə bağlı idi.

Daha uzaq məsafəyə uça bilən, daha çox silah və sursatla təchiz olunma qabiliyyətinə malik iki motorlu FX1 modeli mütəxəssislərin uzun müzakirələrindən sonra, tərəflərin razılaşdığı model olub.

İstehsal olunacaq FX1 modeli üçün 2013- 2023-cü illər arasında sistemin təkmilləşdirilməsi yolunda görüləcək işlərin tamamlanacağı planlaşdırılır.

Təyyarənin 2023-cü ildə Türkiyə səmasında ilk uçuşunu həyata keçirməsi nəzərdə tutulur. FX1 döyüş təyyarəsi ilk uçuşunu həyata keçirdikdən sonra iki il ərzində, yəni 2023-cü ildən 2025-ci ilə qədər onun sınaq mərhələsindən keçirilməsi də planlaşdırılır.

Təyyarənin təchizatında istifadə olunan bütün radar və silah hədəfləmə texnologiyası, eləcə də digər lazımi detallar yerli istehsalın məhsulu olacaq.

## GÜRCÜSTANDA AZƏRBAYCAN XALÇAÇILIQ ƏNƏNƏSİ YAŞADILIR



BBC Azərbaycancanın yaydığı məlumata görə, ABŞ-ın Millenium Yardım və İnkişaf Xidmətləri təşkilatının təşəbbüsü ilə həyata keçirilən “reWoven” layihəsi Gürcüstan azərbaycanlıları arasında xalçaçılıq ənənəsinin dirçəldilməsinə çalışır.

Xalçaların satışından əldə olunan gəlirlər isə toxuculara ödənilir.

BBC Azərbaycanca üçün “reWoven” layihəsinin təsisçisi Ryan Smith müsahibə verib.

## BAŞSAĞLIĞI

**Gürcüstan Gənclərinə Yardım və Maarifləndirmə Təşkilatının və “Yeni yol” qəzetinin kollektivi Qardabani şəhər xəstəxanasının həkimi Mustafa Osmanova oğlu**

**Əhəd Mustafa oğlunun**

**vaxtsız vəfatından kədərləndiyini bildirir, mərhumun ailəsinə və yaxınlarına dərin hüznlə başsağlığı verir.**

**Allah rəhmət eləsin.**

**Kosalı ictimai məktəbinin pedaqoji kollektivi iş yoldaşları müəllimi Qumru Əliyevaya qardaşı**

**Əhəd Mustafa oğlunun**

**vaxtsız vəfatından kədərləndiyini bildirir, mərhumun ailəsinə və yaxınlarına dərin hüznlə başsağlığı verir.**

**Allah rəhmət eləsin.**

**Kosalı ictimai məktəbinin pedaqoji kollektivi Qardabani şəhər xəstəxanasının həkimi Mustafa Osmanova oğlu**

**Əhəd Mustafa oğlunun**

**vaxtsız vəfatından kədərləndiyini bildirir, mərhumun ailəsinə və yaxınlarına dərin hüznlə başsağlığı verir.**

**Allah rəhmət eləsin.**

**Təsisçi:**
***“Gürcüstan gənclərinə Yardım və Maarifləndimrə Təşkilatı”***

***Redaktor:***
**Afiq Muxtaroğlu**
***Yayım Direktoru:***
**Hacı Bəkiroğlu**

Ünvan: Qardabani şəh, Kolxoz küç, 4
Tel/ (+995) 595 92 25 70
599 54 12 92
email: yeni_yol@mail.ru

Redaksiyaya gələn əlyazmalar geri qaytarılmır və onlara rəy verilmir.
Müəlliflə redaksiyanın mövqeyi müxtəlif ola bilər.
Qəzet hələlik ictimai əsaslarla yayımlanır və pulsuz paylanır.
Qəzetdə müxtəlif informasiya agentliklərinin xəbərlərindən də istifadə olunur.